

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

20 yanvar 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 3 (3566)

# AZƏRBAYCAN QAFQAZIN İQTİSADİ, SİYASİ VƏ HƏRBİ GÜC MƏRKƏZİDİR

## *Prezident İlham Əliyevin regionda sülh çağırışları, əslində, dünyanın xilasına yönəlib*



Qarabağ münaqişəsinin həllindən sonra etiraf etsələr də, etməsələr də dünyanın aparıcı gücləri Azərbaycana Qafqazın himayəçisi kimi baxmağa başladılar. Düzdür, NATO nəhəngi Türkiyənin xeyir-duasını alan Xəzərin sahilində ikinci bir türk dövlətinin iqtisadi, siyasi və hərbi qüdrətini sinirmək çətin olsa da, necə deyərlər, hökmü zaman deyil, Azərbaycan xalqı və onun prezidenti vermişdi. Bu gün siyasi proseslərin əqrəbini geriyə çevirmək istəyənlərin bütün cəhdləri boşa çıxır, məsələn Minsk qrupu kimi…

Sönmüş münaqişə ocaqlarını yenidən yandırmaq, bir az da obrazlı desək, "Ölü canları diriltmək" bəzi güclərin köhnə şakəridir. Üstündən qışlar, baharlar keçmiş "ərəb baharları" əslində, bunun bariz nümunəsidir. "Biz kimi istəsək güclü edərik, biz kimin istəsək qətlinə fərman verərik" hədəsinin hələ də qorxusunu bəzi dövlətlər canında hiss etsə də onu Azərbaycan reallığı kölgəsində qoyur, daha doğrusu, ondan qorxmamağın arqumentlərini yaradır.

Azərbaycan İkinci Vətən savaşında demək olar ki, təklənmişdi. Qarabağ münaqişəsinin həllində birbaşa cavabdehlik daşıyanlar təcavüzkarın tərəfində idilər. Öz yurd-yuvasından qaçqın və məcburi köçkün düşən bir milyon insanın hüququnun məhz işğalçı tərəfindən deyil, həm də onlar tərəfindən tapdanması dünyanın "güclü olan hər zaman haqlıdır" aksiomu ilə idarə olunmasını bir daha sərgilədi. Bu məsələyə Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibədə çox səmimi şəkildə münasibət bildirib: "Prezident seçiləndə mənim 41 yaşım var idi və təcrübəm də o qədər böyük deyildi və mən o vaxt beynəlxalq hüquqa inanırdım. İnanırdım ki, ədalət haradansa göydən düşüb bizim məsələmizi həll edəcək. Sonra başa düşdüm ki, ədaləti biz özümüz bərpa etməliyik. Danışıqların birinci mərhələsində, mənim iştirak etdiyim dövrdə belə ümidlərim var idi. Sonra isə gördüm ki, artıq bunun heç bir əhəmiyyəti yoxdur. Xüsusilə indiki Ermənistan hakimiyyəti bunu yenə də açıq-aşkar bəyan edəndə, faktiki olaraq, danışıqlara öz bəyanatları və yersiz addımları ilə son qoyanda, artıq tam aydın oldu ki, vaxt itirmək mümkün deyil"…

Cənab Prezident haqlıdır, çünki Ermənistanın arxalandığı güclər münaqişənin uzanmasını və Azərbaycanın ərazi itkisi ilə barışmasını istəyirdilər. Məhz buna görə də beynəlxalq hüquq adlı "adı var, özü yox"la gözümüzü qorxudurdular. Və Qarabağ münaqişəsi başa çatdıqdan, Azərbaycan güclü tərəf olduqdan sonra beynəlxalq hüquq, insan haqları üzə çıxdı. Gülməlidir, deyilmi?

İkinci Vətən müharibəsindən sonra Prezident İlham Əliyev dünya siyasətində Qafqazın Lideri statusunu qazandı desək, yanılmarıq. Bunu böyük siyasi təşkilatlar etiraf edirlər. Qarabağda abadlıq-quruculuq işlərinə başlanılması həm də Qafqazda siyasi sabitliyin qurulması kimi də dəyərləndirilə bilər. Yəni daşı-daş üstə qoymaqla yıxılan evlərin yenidən tikilməsi dünyanın siyasət nəhənglərinə, böyük dövlətlərinə sülh üçün bir mesajdır. Gəlin, dünyanın evinin tikilməsinə Qarabağdan başlayaq…

Dünya Qarabağ mənzərəsini acgözlüklə izləyir və "Dəmir yumruğ"un yıxan deyil, onlardan fərqli olaraq quran gücünü də görür. Prezident İlham Əliyev faktlarla danışmağı sevir. Onun siyasi xəttində, bir sözlə, xarizmasında avantüraya yer yoxdur.

Ölkə başçısı vaxtla işləməyi bacarır. Onu necə dəyərləndirdiyinə də aydınlıq gətirir: "Bilirsiniz, bir şeyi də deməliyəm, hər şeyi vaxtında etmək lazımdır. İkinci Qarabağ müharibəsi də onu göstərdi. Bir il əvvəl bəlkə də tez idi, bir il sonra gec idi, hər şey vaxtında. Bu vaxtı müəyyən etmək, düzgün seçmək, avantüraya getməmək, ölkəni risk altına salmamaq və mümkün dərəcədə maksimum uğura nail olmaq, əlbəttə ki, böyük zəhmətin işidir".

O, həm də cəsarət örnəyidir. Bu cəsarəti isə o, qalib xalqından və danılmaz tarixindən alır. Media nümayəndələri ilə görüşdə tarixi həqiqətlərin yenidən dilə gətirilməsi bir deyil, bir neçə hədəfə varmaq istəyindən irəli gəlir: "Çünki hər kəs artıq bunu yaxşı bilir, dünya ictimaiyyəti də bilir ki, 1920-ci ilin noyabr ayında tarixi torpağımız Zəngəzur bizdən ayrılıb Ermənistana birləşdirildi, Göyçə də həmçinin. İrəvan şəhəri 29 may 1918-ci ildə Ermənistana verildi. Yəni, bizim Ermənistanın ərazi bütövlüyünü tanımamaq üçün, necə deyərlər, bir çox amillərimiz var".

Yeri gəlmişkən, bir neçə gün öncə xalqımızın yaddaşında özünə əbədilik qazanan, "Millət atası" kimi anılan Hacı Zeynalabdin Tağıyevin xatirəsinə göstərilən ehtiram da onun hər birimizə Vətən daşı olmaq üçün çağırışıdır.

# ÖTƏN İLİN NƏTİCƏLƏRİ MÜZAKİRƏ OLUNUB



Yanvarın 18-də Daxili İşlər Nazirliyində cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə respublika daxili işlər orqanlarının 2021-ci ildəki fəaliyyətinin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş Kollegiya iclası keçirilib.

Videokonfrans formatında keçən iclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən fəal hüquq mühafizə siyasətinin məntiqi nəticəsi olaraq ölkəmizdə möhkəm təməllərə söykənən ictimai asayiş və sabitlik 2021-ci ildə də etibarlı qorunub. Daxili işlər orqanları tərəfindən əvvəlki illərdə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb. Eyni zamanda, o, daxili işlər orqanlarının və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi, xüsusi karantin rejiminə nəzarətin həyata keçirilməsi sahəsində xidməti vəzifələrin öhdəsindən layiqincə gəldiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə və işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyi etibarlı təmin etdiyini vurğulayıb.

Nazir V.Eyvazov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, 2021-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan dövlət qurumları üzrə 31.131 cinayət qeydə alınıb və onlardan 94,2 faizi daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdığı hüquqazidd əməllər olub. Cinayətlərin 84 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib.

Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri ilə cinayətlərin 88,9 faizinin açılması təmin edilib. Ayrı-ayrı hüquqazidd əməllərin açılmasının nəticələri də yüksək olmaqla ağır və xüsusilə ağır cinayətlərin 82,9, qeyri-aşkar şəraitdə baş verənlərin 83,4, şəxsiyyət əleyhinə olanların 97,9, mülkiyyət əleyhinə olanların 79,9 faizi açılıb. Vətəndaşların iştirakı ilə açılan cinayətlərin sayı isə hesabat dövründə 39 faiz artaraq 7837 fakt təşkil edib.

Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 332 cinayət üzrə təqsirli şəxslər müəyyən edilərək məsuliyyətə cəlb olunub.

O da qeyd olunub ki, müqayisə edilən dövrə nisbətən 2021-ci ildə şəxsiyyət əleyhinə olan cinayətlər 4,3, o cümlədən qəsdən adam öldürmələr 13, adam öldürməyə cəhdlər 16,7, qəsdən sağlamlığa az ağır zərər vurmalar 2,7, odlu silahın tətbiqi ilə baş verən cinayətlər 21,4, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilənlər 31, oğurluqlar 3,3, onlardan mənzillərdən edilənlər 14, soyğunçuluqlar 26 faiz azalıb.

Həyata keçirilmiş operativ tədbirlər nəticəsində 268 kriminal qrup zərərsizləşdirilib, odlu silah saxlayan və daşıyan 188 şəxs cinayət məsuliyyətinə cəlb edilib.

Qanunsuz dövriyyədən 2020-ci illə müqayisədə 1,1 ton çox - 3 ton 45 kiloqram narkotik vasitənin çıxarıldığını, 174 tondan artıq narkotik xassəli bitkilərin aşkarlanıb məhv edildiyini vurğulayan nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib. Bu bəlaya qarşı mübarizədə hər kəsin ümumi işə real köməkliyinin vacibliyini, həmçinin narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə vətəndaşların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyatların keçirildiyini xüsusi vurğulayıb və bu növ cinayətlərin açılmasında da fəal vətəndaşlıq mövqeyi sərgiləyən şəxslərə təşəkkür edib.

*Ardı 2-ci səhifədə.*

# ÖTƏN İLİN NƏTİCƏLƏRİ MÜZAKİRƏ OLUNUB





*Əvvəli 1-ci səhifədə.*

Yeniyetmələr və gənclər arasında antinarkotik təbliğatın daha məqsədyönlü davam etdirilməsinin vacibliyinə də toxunan nazir bu istiqamətdə əsas diqqətin ölkədə narkotiklərə tələbatın azaldılmasına yönəldilməsinin əhəmiyyətini nəzərə çatdırıb. Daxili İşlər Nazirliyinin bu məsələdə cəmiyyətin yetkin təbəqəsinə, sağlam düşüncəli hər bir vətəndaşa güvəndiyini, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən bloggerlərdən daha böyük gözləntilərinin olduğunu qeyd edib.

Vətəndaş məmnunluğunun təmin olunması, ərizə və şikayətlərin obyektiv, həssaslıqla araşdırılması, qanunçuluğun qorunması, şəxsi heyətin etik davranış qaydalarına riayət etməsi kimi mühüm vəzifələrin icrasına da diqqət çəkən general-polkovnik Vilayət Eyvazov bu istiqamətlərdə böyük bir fəaliyyətin ortaya qoyulduğunu, nəticələrin müsbət olduğunu, o cümlədən vətəndaşların qəbulu və minlərlə müraciətinin araşdırılması zamanı qaldırdıqları məsələlərin əksəriyyətinin qanunauyğun həllini tapdığını, “102” Xidmətinə, qaynar xətlərə daxil olmuş, sosial şəbəkələrdə yayımlanmış hər bir müraciətə çevik reaksiya verildiyini, cinayətlər nəticəsində vurulmuş maddi ziyanın təxminən 90 faizinin ödənildiyini, əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini nəzərə çatdırıb.

İclasda Bakı Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Əkbər İsmayılov, Baş Mühafizə İdarəsinin rəisi, polis general-mayoru Nurullah Məmmədxanlı, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov, Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Teymur Hacıyev, Sumqayıt Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Fəqan Azadəliyev və ərazi polis orqanlarının rəisləri hesabat məruzəsi ilə çıxış ediblər.

İclasa yekun vuran daxili işlər naziri 2021-ci ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu da nəzərə çatdıraraq onların hərtərəfli təhlili, aradan qaldırılması yolları, həmçinin qarşıda duran vəzifələrlə bağlı konkret tapşırıq və tövsiyələrini verib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali diqqət və qayğıya, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada asayişin, daxili təhlükəsizliyin, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə yerinə yetiriləcək.

# DAXİLİ QOŞUNLAR ETİMADI DOĞRULDUR

## *Fəaliyyətin təkmilləşdirilməsi nümunəvi xidmətlə müşahidə olunur*






***Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Daxili Qoşunların Baş İdarəsində 2021-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.***





Müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf və tərəqqi strategiyası nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib, dövlət başçısının ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatının, hərbi qulluqçuların iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

DİN-in və onun təşkilati strukturu olan Daxili Qoşunların ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizənin səmərəli təşkilində, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, insan və vətəndaş hüquq və azadlıqlarının təminində rolunu və xidmətlərini cənab Prezidentin hər zaman yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edən nazir, onu da vurğulayıb ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan xidməti vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı, general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov ötən hesabat ilində Qoşunların fəaliyyətini yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib. Eyni zamanda əmin olduğunu bildirib ki, şəxsi heyət Ali Baş Komandanın yüksək diqqət və qayğısına sabitliyin, əmin-amanlığın etibarlı qorunması, cinayətkarlıqla qətiyyətli mübarizə, eləcə də işğaldan azad edilmiş ərazilərdə nümunəvi xidmətləri ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək.

*15 yanvar 2022-ci il.*

# POLİSƏ YAZILAN MƏKTUBLAR...

"Pulumu alıb aradan çıxan şəxsi polis tapdı və mənə dəyən maddi ziyanın ödətdirilməsi təmin edildi. Cəmiyyətdə üzləşdiyimiz belə hallara qarşı Azərbaycan Polisinin apardığı mübarizədən, göstərmiş olduğu çevik reaksiyadan məmnunam". Bu fikirlər Abşeron rayon sakini **Bahar Abbasovanın** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.

Sosial şəbəkə istifadəçisi **Anjelika İbrahimova** yazır ki, mobil telefonunun oğurlanması ilə bağlı müraciət edib. Qısa zaman kəsiyində Binəqədi RPİ 5-ci Polis Bölməsinin əməkdaşları şübhəlini tapıb, telefonu isə sahibinə qaytarıblar.

**Göyçay rayon sakini Mətanət Salahova:** “Azərbaycan Polisi ilə qürur duyuram. Buna əsaslı səbəblərim var. Bugünlərdə problemimin həllini tapmasında Suraxanı RPİ 14-cü Polis Bölməsinin əməkdaşları sözün əsl mənasında fədakarlıq göstərdilər”.



**Xaçmaz rayon sakini Türkan Cəfərova** hüquqlarının bərpa olunmasında ona göstərilən köməkliyə görə DİN rəhbərliyinə təşəkkürünü bildirir və qeyd edir ki, vətəndaş müraciətlərinə həssaslıqla yanaşılması polis-vətəndaş münasibətlərinin daha da yaxşılaşmasına zəmin yaradır.

**Paytaxt sakini Seymur Səfərov** ona dəyən ziyanın ödənilməsində göstərdikləri köməkliyə görə Nəsimi Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

**İlqar Hüseynov** da ictimai qaydanın və təhlükəsizliyin təmin olunmasında, hüquqazidd əməllərin qarşısının alınmasında xidməti borclarını layiqincə yerinə yetirdiklərinə, peşəkarlıq nümayiş etdirdiklərinə görə Azərbaycan Polisinin xidməti fəaliyyətini təqdir edir.

**Sabirabad rayon sakini Vüsalə Hacıyeva** da yazır ki, evində baş vermiş oğurluq hadisəsinin üstünün "isti izlər"lə açılıb və ona dəyən maddi ziyan ödənilib.

Soaial şəbəkə izləyicimiz, **Bakı şəhər sakini Şəlalə İsmayılova** itirdiyi cüzdanının tapılıb ona qaytarılmasında göstərdikləri köməkliyə görə Binəqədi RPİ 5-ci Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü ifadə edir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# AZADLIQ QURBANLARI yad olundu

***20 Yanvar** faciəsinin 32-ci ildönümü ərəfəsində Daxili İşlər Nazirliyinin Şəxsi Heyətlə İş İdarəsində həmin qanlı gecədə həyatını itirən polis əməkdaşlarının ailə üzvləri ilə görüş keçirilib.*

Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra tədbiri giriş sözü ilə açan idarə rəisinin müavini, polis polkovniki Elşən Əhmədov daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun adından şəhid ailələrini salamlayaraq bildirib ki, Azərbaycanın azadlıq və müstəqillik mübarizəsi tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılmış 20 Yanvar faciəsi qurbanları Azərbaycan tarixinə və xalqımızın yaddaşına əbədi olaraq  həkk olunub.



Qeyd olunub ki, həmin müdhiş gecədə öz xidməti borcunu layiqincə yerinə yetirərək əsl qəhrəmanlıq göstərən, şəhidlik zirvəsinə ucalan həmkarlarımızın ömür yolu bu gün sıralarımızda olan, xidmətə yeni başlayan gənclərə örnəkdir. Bir qərinəyə yaxın zaman keçməsinə baxmayaraq onların xatirəsi əziz tutulur, adları anılır, ruhuna dualar oxunur.

Polis polkovniki E.Əhmədov diqqətə çatdırıb ki, milli azadlığın və ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhalinin güllə-boran edilməsi sovet rejiminin cinayətkar mahiyyətini bütün dünyaya nümayiş etdirdi. Lakin xalqın azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətən övladları o gecə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Xalq həmin günlərdə böyük bir həqiqəti - meydanda həqiqi liderin olmamasını da bütün mahiyyəti ilə dərk etdi, acısını-ağrısını yaşadı. O müdhiş günlərdə ulu öndər Heydər Əliyevin Azərbaycandan uzaqda olması düşmənin əl-qolunu əməlli-başlı açmışdı. Amma Bakıda olmamasına baxmayaraq, xalqının səsinə hər kəsdən əvvəl səs verən də elə O qüdrətli insan oldu. Ümummilli liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünü və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, yanvarın 21-də daimi nümayəndəliyimizə gəldi, təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Xalqımızın ümummilli lideri Heydər Əliyev 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət oldu.

Sonra şəhid ailələri adından çıxış edən  Marina Boqdanova 20 Yanvarda şəhid olan oğul və qızlarımızın xatirəsinin dövlətimiz, həmçinin DİN rəhbərliyi tərəfindən daim hörmətlə anıldığını, ailələrinə hər zaman maddi və mənəvi yardım göstərildiyini vurğulayıb.

Daha sonra şəhid ailələrinə DİN rəhbərliyi adından maddi yardım təqdim olunub və onlarla xatirə şəkli çəkilib.

*"Polis"*

# VETERANLAR DA HESABAT VERİRLƏR

Paytaxtda və yerlərdə onlar üçün lazımi şəraitin yaradılması bu gün polis veteranlarının cinayətkarlıqla mübarizəyə, asayişin qorunmasına yaxından kömək göstərmələrinə, ölkəmizdə əmin-amanlığa, inkişafa öz töhfələrini vermələrinə zəmin yaradır.

Ötən il ərzində daxili işlər orqanları veteranlarının da gördüyü iş müsbət çalarlarla yadda qalmışdır. Belə ki, respublika üzrə məktəblərdə, müxtəlif mərasimlərdə kütləvi tədbirlərdə veteranlarımız 345 görüş keçirmişlər.

> ***Təqaüddə olsalar da yenə polis andına sadiqdirlər, vətəndaş yanğısı ilə dövlətə, dövlətçiliyə xidmət edirlər. Şəxsi heyətin təlim-tərbiyəsi, hüquqi maarifləndirmə işinin təbliği kimi vacib istiqamətlərdə fəallıq nümayiş etdirmələri də öz yerində.***

Veteranlarla iş birliyi, görülən birgə tədbirlər polis orqanlarının əməliyyat-axtarış və profilaktika fəaliyyətinə öz müsbət təsirini göstərmiş, 7454 cinayətin üstü onların iştirakı ilə açılmışdır. Yeri gəlmişkən, Binəqədi RPİ-də 910, Nərimanov RPİ-də 119, Sumqayıt ŞPİ-də 962, Yasamal RPİ-də 542, Səbail RPİ-də  292, Suraxanı RPİ-də 513, Nəsimi RPİ-də 73, Mingəçevir ŞPŞ-də 280, Ağdaş RPŞ-də 236, Quba RPŞ-də 276, Salyan RPŞ-də 124, Bərdə RPŞ-də  116, Şabran RPŞ-də 52, Füzulu RPŞ-də 104, Oğuz RPŞ-də 51, Saatlı RPŞ-də 64, Qazax RPŞ-də 38, Qax RPŞ-də 94, Qəbələ RPŞ-də 82, Goranboy RPŞ-də 41, Hacıqabul RPŞ-də 35, Tovuz RPŞ-də 107, Ucar RPŞ-də 60, Şəmkir RPŞ-də 36, Lənkəran ŞRPŞ-də 163, Sabirabad RPŞ-də isə 145 cinayətin açılması təmin edilmişdir.

Daxili işlər orqanları əməkdaşlarının cinayətkarlıqla mübarizəsinə verdikləri dəstək, gənc nəslin vətənpərvər ruhda tərbiyə olunmasındakı xidmətləri nəzərə alınaraq, eləcə də bir sıra ölkə əhəmiyyətli tədbirlər münasibətilə 17 nəfər polis veteranına pul mükafatı verilmiş, ümumilikdə 67 şəhər, rayon, polis idarə və şöbələrinin veteranlar şurası sədrlərinə isə DİN rəhbərliyi adından təşəkkür elan edilmişdir.

*"Polis"*

# TARİX YAZDI, TARİXDƏ QALDI

***Xalqımızın başına gətirilən müsibətlərdən biri kimi tariximizin hüzünlü səhifəsinə həkk olunmuş 20 Yanvar faciəsi onun dirənişini, mübarizə əzmini dünyaya nümayiş etdirdi.***



O günlərdə azadlıq sevdası ilə alışıb yanan hər kəs bir qəhrəman idi, ancaq bu “alovun”  sönməməsi üçün özünü oda-közə atıb fədakarlıq edənlərin tarixə düşmə haqqı, təbii ki, daha çoxdur. **Eyni ilə polis polkovnik-leytenantı Varis Məcidov kimi.**

O, 1954-cü ildə Göyçayda doğulub. 1977-ci ildə hərbi xidmətdə olduğu Rusiyanın Ulyanovsk şəhərinə gedib və orada milis məktəbini bitirib. Bu şəhərin dəmiryolunda əməliyyat müvəkkili işləyən həmkarımız milis kapitanı rütbəsinə qədər yüksəlib.

Bu, o dövrə təsadüf edir ki, SSRİ-nin çöküşü ilə barışmayan qüvvələr tərəfindən yanvar ayında Azərbaycana qoşun yeridilir, 19-dan 20-nə keçən gecə faciə baş verir, onlarla dinc sakin öldürülür, tutulanlar izsiz-soraqsız imperiyanın müxtəlif təcridxanalarına aparılıb həbs edilir. Varis Məcidovun xidmət etdiyi Ulyanovsk şəhərindəki DİI-nin təcridxanasına da aralarında ziyalıların, tanınmış şəxslərin olduğu 46 azərbaycanlı dustaq saxlanılırmış.

**Həmkarımız çox nadir müsahibələrinin birində o günləri belə xatırlayırdı:**

“Fevralın ilk günləri idi. Ulyanovsk istintaq təcridxanasının rəisi Gennadi Revin mənə dedi ki, Azərbaycandan 46 siyasi dustaq gətirilib, onlar rus ordusuna qarşı çıxıblar. Qan içində, pis vəziyyətdədirlər - qollarını, boğazlarını məftil kəsib. Biz Ulyanovskda 7 qardaş idik. Gəldim qardaşlarımın yanına ki, 46 nəfərlik yemək lazımdır. Yeməkləri hazırlayıb təcridxanaya getdim. Növbətçi qapını açdı. Onları görüb kövrəldim. Məndən Bakını soruşdular, dedilər, qəzetlər nə yazır? Onlara qəzet verdim. Sonra xahiş etdilər ki, kameraları açdırıb onları görüşdürüm. Revin narazılıqla da olsa kameraları açdı, bir-birləri ilə görüşüb qucaqlaşdılar. Bir də dedilər ki, Bakıda onların hara aparıldıqlarını heç kim bilmir. Mən onların ailə üzvlərinə zəng edib məlumat verdim. Telefon zənglərimi ailələr ağlaşma ilə qarşıladılar. Dedilər, biz elə bilirik onları öldürüb dənizə atıblar, yas mərasimləri veririk. İnanmırdılar mənə...”

**Təcridxanadakı dustaqlardan biri də o günləri belə yada salacaqdı:** “Ulyanoskda istintaq təcridxanasının rəisilə birgə tanımadığımız bir adam gəldi. Rəis dedi ki, bu sizin yerlinizdir. Biz 4 kamerada 46 nəfərdik. O, kameralara yemək, siqaret gətirmişdi. Sonra hər gün gəldi və hər gələndə də Ulyanovskda yaşayan azərbaycanlıların adından ərzaq gətirir, xoş sözlərlə bizə dayaq olurdu. Biz demək olar ki, onun hesabına salamat geri qayıtdıq”.

Bu “geri qayıtma” anında da polis kapitanı Varis Məcidov yenə onları öz himayəsinə alıb. Həmkarımız dustaqların Azərbaycana qatarla göndəriləcəyi halda, işgəncəyə məruz qalacağını bilib, öz şəxsi vəsaiti hesabına onlara həm qatar, həm də təyyarə biletləri alıb. Müvafiq qurumlara 46 azərbaycanlının qatar biletini təqdim etsə də, soydaşlarımızı Bakıya təyyarə ilə  yola salıb.

20 yanvar günü Bakı küçələrində hadisələri lentə alan televiziya işçilərindən biri, kinorejissor, respublikanın xalq artisti Vasif Babayev də Ulyanovskdakı təcridxanada saxlanılıb. O, sonralar deyirdi ki, oranın hüquq mühafizə orqanları, bizi yenə əzablı "Stolıpin" vaqonları ilə Bakıya göndərmək istəyirdilər. Amma Varis Məcidov buna mane oldu. Bakıya, Binə aeroportuna zəng etdi ki, burada 50 nəfər dustaq var, aralarında çox tanınmış, hörmətli insanlar var, niyə axı onları dustaq kimi göndərək? Mümkünsə, təyyarə göndərin. Bakıdan cavab verdilər ki, yox, biz bunu edə bilmərik. Axır ki, yenə də Varis müəllim Bakıdan təyyarə sifariş edib öz vəsaiti hesabına bizi Vətənə yola saldı.

Aydın məsələdir ki, bu “səhvi” polis kapitanına bağışlanmır və ona təzyiqlər başlayır. Buna görə də  doğma Vətəninə qayıdıb Kürdəmir RPŞ-də narkotiklərlə mübarizə qrupunun əməliyyat müvəkkili olaraq xidmətini davam etdirir. **Əfsuslar olsun ki, vətənpərvər polis polkovnik-leytenantı Varis Məcidov 2005-ci ildə avtomobil qəzasında dünyasını dəyişib.**

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# ŞƏHİD POLİSİN xatirəsi anılıb



Tərtər Rayon Polis Şöbəsinin şəxsi heyəti Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalmış polis əməkdaşı Natiq Əliyevin doğum günündə  onun məzarını ziyarət edib, önünə gül-çiçək dəstələri düzüblər.

Mərasimdə döyüş yoldaşları, müharibə veteranları könüllü olaraq özünümüdafiə batalyonuna qoşulan həmkarımızın döyüş yolundan, cəsurluğundan söhbət açıb, gənc nəslə örnək bir ömür yaşadığını bildiriblər.

Qeyd edək ki, 1993-cü ildə Ağdərə Rayon Polis Şöbəsində xidmətə başlayan Natiq Əliyev 1994-cü ilin mayın 6-da doğulduğu Ağdərə rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

# Təbiətin də keşiyindəyik

**Daxili işlər orqanları tərəfindən ekoloji cinayətlərin və ekoloji təhlükəsizlik əleyhinə olan inzibati xətaların qarşısının alınması məqsədilə zəruri tədbirlər həyata keçirilir.**



2021-ci il ərzində bu istiqamətdə keçirilən tədbirlər nəticəsində qanunsuz ağac kəsmə faktı üzrə 85,  balıq və başqa su heyvanlarının tutmağa görə 109, qanunsuz ovla bağlı isə 1 cinayət işi başlanılıb.

Eyni zamanda, meşə qanunvericiliyinin tələblərini, yerin təkindən istifadə qaydalarını pozduqlarına və qanunsuz ov etdiklərinə, eləcə də mülki silahın daşınması qaydalarını pozduqlarına görə 938 nəfər barəsində inzibati tənbeh tədbiri görülüb ki, onlara tətbiq olunan cərimələr 42.020 manat təşkil edib.

Daxili İşlər Nazirliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ötən il ərzində keçirilən tədbirlər zamanı Bakı şəhərində və Abşeron rayonu ərazisində İnzibati Xətalar Məcəlləsinin 271-ci və 264-cü (su obyeklərinin mühafizə qaydalarının pozulması) maddələrinin tələblərini pozan 23 fiziki, hüquqi və vəzifəli şəxs müəyyən edilərək barələrində müvafiq tədbirlər görülməklə 40.700 manat cərimə tətbiq edilib.

Şəhər, rayon polis orqanları tərəfindən ötən il ərzində həyata keçirilən tədbirlər nəticəsində isə İnzibati Xətalar Məcəlləsinin 264-cü, 266.3-cü və 271-ci maddələrinin tələblərini pozan 3191 nəfər barəsində inzibati tənbeh tədbiri görülüb ki, həmin şəxslərə tədbiq olunan cərimələr 157.880 manat təşkil edib.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

*Natiq Cavadov,*
*polis mayoru*

# Polis övladının UĞURU

**Bugünlərdə Budapeştdə keçirilən idmanın Kapoeyra növü üzrə açıq Beynəlmiləl turnirdə 15 ölkənin ən güclüləri bir araya gəlib.** Ölkəmizi təmsil edən yığma komandamızın üzvləri 4 qızıl, 4 gümüş və 6 bürünc olmaqla ümumilikdə 14 medal qazanıb.



Bir çox yarışların qalibi və mükafatçısı olan Rəsul Muradlı 28 kiloqram çəki dərəcəsində 10-12 yaş qrupu arasında almaniyalı, portuqaliyalı və rusiyalı rəqiblərinə asanlıqla qalib gəlib. Finalda özündən 18 kiloqram artıq olan estoniyalı idmançıya məğlub olaraq, turnirin gümüş medalını qazanıb.

Qeyd edək ki, Rəsul Muradlı Bakı şəhər BPİ DYPİ-nin hərəkətin təhlükəsizliyinin təşkili və ictimai qurumlarla əlaqə bölməsinin inspektoru, polis baş leytenantı Pərvanə Muradovanın oğludur.

*Ruslan Vəliyev, polis baş leytenantı*

# Təmsilçimiz QIZIL MEDAL qazandı

**Yanvarın 14-də Sloveniyanın Ruşe şəhərində atıcılıq üzrə keçirilən ISSF Qran-Pri turnirində dünyanın tanınmış atıcıları, dünya və Avropa çempionları, Olimpiya oyunlarının qalibləri qələbə uğrunda mübarizə aparıblar.**

Yarışda ölkəmizin atıcılıq üzrə milli komandası da iştirak edib. Komandanın tərkibində mübarizə aparan DİN Daxili Qoşunlarının hərbi qulluqçusu, kapitan Ruslan Lunyov öz sərrastlığını bu dəfə də nümayiş etdirib.




O, pnevmatik tapançadan 10 metr məsafəyə atəş açma yarışında ən yüksək xal toplayıb və turnirin qalibi olub.

*İbrahim Əmiraslanlı, polis baş serjantı*

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Xəzər RPİ 1-ci PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Cinayət Məcəlləsinin 234-cü (Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) maddəsi ilə axtarışda olan T.Kapışov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin və metamfetamin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Binəqədi RPİ 4-cü PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yanvarın 17-də Biləcəri qəsəbəsi ərazisində Xırdalan şəhər sakini E.Qasımovu döyüb 3600 ABŞ dollarını quldurluq yolu ilə almaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş A.Əliyev müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Lənkəran ŞRPŞ-nin** əməkdaşları tərəfindən narkotik vasitə ilə tutulmuş R.Əkbərovun yaşadığı evin həyətinə baxış zamanı oradan "Walter" markalı tapança aşkar edilərək götürülmüşdür.

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

## 2022/2023-cü tədris ili üçün DİN-in Polis Akademiyasında "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsilə kursantların qəbuluna dair ELAN

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasına "hüquqşünaslıq" ixtisası üzrə əyani təhsil üzrə 200 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə - Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi həqiqi hərbi xidmətə yararlı olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, 2022-ci ilin yanvar, aprel və iyul tarixli çağırışlarında həqiqi hərbi xidmətə getməli olan çağırışçılar, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmır.

Sənədlərin qəbulu 2022-ci il yanvar ayının 24-dən mart ayının 5-dək bazar günləri istisna olmaqla hər gün saat 10:00-dan 17:00-dək namizədin təhsil aldığı təhsil müəssisəsinin yerləşdiyi inzibati ərazi üzrə polis idarə və ya şöbələrində həyata keçiriləcək. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);***

***– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd;***

***– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;***

***– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);***

***– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;***

***– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).***

Seçmə komissiyasının vaxtı barədə və Polis Akademiyası haqqında ətraflı məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az və Akademiyanın www.pa.edu.az internet saytlarında yerləşdiriləcək.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 454-12-78, (012) 590-98-16.**

## 2022/2023-cü tədris ili üçün DİN-in Polis Akademiyasına ali təhsilin bakalavriat səviyyəsinə qiyabi təhsil üzrə qəbul

DİN-in Polis Akademiyasında qiyabi təhsilə qəbulla bağlı müsabiqədə - sıravi və kiçik, orta və böyük rəis heyəti vəzifələrində xidmət edən, tam orta, yüksək texniki peşə, orta ixtisas və ya ali təhsili başa vurmaq haqqında müvafiq dövlət nümunəli sənəd almış polis əməkdaşları yanvar - aprel aylarında əsaslandırılmış raportla Azərbaycan Respublikası daxili işlər nazirinə müraciət etməklə iştirak edə bilərlər.

Əməkdaşlar Polis Akademiyasında keçirilən daxili işlər orqanları əməkdaşları üçün nəzərdə tutulmuş fiziki hazırlıq üzrə normativləri yerinə yetirdikdən sonra Akademiyaya qəbul üzrə müsabiqədə iştiraka buraxılırlar.

Akademiyaya qəbul üzrə müsabiqə informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə Polis Akademiyasında test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

Daha ətraflı məlumatı DİN-in Polis Akademiyasının - **(012) 454-12-78 və ya Baş Kadrlar İdarəsinin - (012) 590-99-82, 19-82 (daxili) nömrəli telefonları vasitəsilə ala bilərsiniz.**

## 2022/2023-cü tədris ili üçün DİN-in Polis Akademiyasına ali təhsilin magistratura səviyyəsinə əyani təhsil üzrə qəbul

1.Azərbaycan Respublikası DİN-in Polis Akademiyası dövlət hesabına 2 illik əyani təhsil üçün hüquqşünaslıq ixtisasının "Cinayət hüququ, cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası" ixtisaslaşması üzrə magistraturaya qəbul elan edir.

2.Akademiyanın magistraturasına qəbul olunmaq istəyən əməkdaş sənədlərin qəbulu üçün 2022-ci ilin fevral ayının 7-nə kimi əsaslandırılmış raportla Azərbaycan Respublikasının daxili işlər nazirinə müraciət edir.

3.Daxili işlər orqanları əməkdaşlarının Akademiyaya qəbulu müsabiqə yolu ilə həyata keçirilir.

4.Daxili işlər orqanları əməkdaşlarının Akademiyanın magistraturasına qəbulu üzrə müsabiqə Polis Akademiyasında informasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə test üsulu ilə keçirilən qəbul imtahanından ibarətdir.

5.İmtahanda bakalavrlara ümumi intellekt səviyyəsinin yoxlanılması üçün 50, informatika üzrə 25 və xarici dil üzrə 25 test tapşırığı təqdim olunacaq.

6.Daha ətraflı məlumatı DİN-in Baş Kadrlar İdarəsinin - **(012) 590-99-47, 19-47 (daxili),** Polis Akademiyasının - **(012) 454-12-78 və ya 454-13-85** nömrəli telefonları vasitəsi ilə ala bilərsiniz.

# STATİSTİKA

## Aşkar edilən silah-sursat

Daxili işlər orqanları tərəfindən qanunsuz saxlanılan silah-sursatın aşkar edilərək götürülməsi məqsədilə əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Əldə edilən məlumatlar əsasında polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində yanvarın 12-dən 18-dək respublikanın ayrı-ayrı rayonlarında vətəndaşlardan qanunsuz saxladıqları müxtəlif markalı ümumilikdə 50 ədəd ov tüfəngi götürülüb.

Polis əməkdaşları tərəfindən aparılan profilaktiki tədbirlər nəticəsində qanunsuz saxlanılan müxtəlif markalı 5 ədəd ov tüfəngi isə könüllü olaraq polisə təhvil verilib.

Faktlar üzrə polis şöbələrində müvafiq araşdırmalar aparılır.

## Toyların monitorinqi

12-18 yanvar tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 1131 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 1114 şadlıq sarayında, 17 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 23 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;
- 1 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsi ilə inzibati qaydada həbs edilib;
- 232 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

## Koronavirus xəstələri saxlanılıb

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirləri davam etdirirlər.

Yanvarın 12-dən 18-dək olan müddətdə polis əməkdaşları tərəfindən respublika ərazisində 26 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 3 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1-ci (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

## Kriminal icmal

- Yanvar ayının 12-dən 18-dək olan müddət ərzində Respublikanın daxili işlər orqanları tərəfindən 420 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 50 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 366, o cümlədən borclu şəxs qismində axtarışda olan 309 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 10 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 13 nəfər ölmüş, 4 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 235 fakt müəyyən edilmişdir.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 7647
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik